Hidayətova, E. O, 44 günlük şanlı müharibənin ilk şəhidlərindən idi / Esmira Hidayətova // Azərbaycan : qəzet. - 2021. - 12 avqust. - № 167. - S. 6.

Şəhid Rüstəm İbrahim oğlu Məmmədov yaşasaydı, 23 yaşı olacaqdı. Onun doğum gününü məzarı başında doğmaları, hərbçi yoldaşları, ictimaiyyət nümayəndələri və şəhid anaları, müəllimi, şagirdlər qeyd etdilər.

Ruhuna dualar oxundu, Allahdan bütün şəhidlərə rəhmət diləndi, hərbçi yoldaşları onun igidliyindən söz açdılar. Çıxış edənlər şəhidin ailəsinə başsaglığı verdilər, "Vətən sağ olsun!" dedilər.

Rüstəm orta məktəbi qurtardıqdan sonra Sumqayıtda hərbi xidmət keçib, əsgərlikdən sonra isə müxtəlif yerlərdə çalışıb. İkinci Vətən müharibəsi başlamazdan 20 gün öncə həyatını yenidən ordu ilə, hərblə bağlayaraq qulluğa başlayıb. Sentyabrın 27-dən döyüşlərə atılıb... və qanlı döyüşlərin 3-cü günündə - sentyabrın 29-da Suqovuşan-Ağdərə istiqamətində döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Amma uzun müddət onun nəşini götürmək mümkün olmayıb. Hamı kimi onun da arzuları vardı, baxmayaraq ki, Rüstəm əsgəri xidmətdə olarkən atası dünyasını dəyişmiş, ailənin bütün qayğıları Rüstəmin üzərinə düşmüşdü. Bacısı Könül xanıma çox bağlı idi. Həmişə deyərdi ki, sənin övladına yaxşı dayı olacağam. Odur ki, bacısı ailə həyatı quranda çox sevindi, çünki arzusu yerinə yetəcəkdi. Amma haradan biləydi ki, elə dayı olacağı gün də şəhid olacaq.

Şəhidin anası Aynur xanım həyatında iki böyük zərbə alıb. Həm həyat yoldaşını, həm də oğul itgisi ona çox təsir edib. Lakin "Çətin də olsa dözürəm, təskinliyimiz torpaqlarımızın düşmən işğalından azad olunmasıdır", - deyir.

Qeyd edək ki, Rüstəm Məmmədov ölümündən sonra "Vətən uğrunda" ,"Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.